# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 dekabr 2025-ci il, cümə axşamı
№ 236 (7063)
Qiymətı 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

*Doğum gününüz mübarək,*
CƏNAB PREZİDENT!



## “Ləyaqət, saf niyyət və xeyirxah ürək - Uca Tanrının sözsüz eşitdiyi ali dualardır. Uca Allah Sizi və xalqımızı qorusun!”.

**Mehriban Əliyeva**

## Xankəndidə Zəfər parkı açıldı



Bax səh. 3




Bax səh. 3

## Qarabağ və Şərqi Zəngəzur abadlaşır...

## “Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi”

Bax səh. 4-5






## Qələbədən qayıdışa...

Bax səh. 3

### Qədim diyardan - Naxçıvandan başlayan həmrəylik yolu

Bax səh. 6

### Növbəti diplomatik uğur!

Bax səh. 6

### Yarımçıq qalan uçuş: bir təyyarə, bir tarix, bitməyən kədər...

Bax səh. 6

### 70 ilin hikməti bir kitabda toplandı!

Bax səh. 7

# Prezidenti təbrik etdilər



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Türkiyə Prezidenti dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin Türkiyəyə, Türkiyə Prezidentinin isə ölkəmizə səfərləri məmnunluqla xatırlanaraq, bütün bunların qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərimizin inkişafında roluna toxunulub.

Rəcəb Tayyib Ərdoğan Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın Azərbaycana səfərini qeyd edərək, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Bakıda keçirilmiş 12-ci iclasının uğurlu nəticələrini vurğulayıb.

Telefon danışığı əsnasında dövlət başçıları əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıblar.



Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Şavkat Mirziyoyev dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdıraraq, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin Özbəkistana, Özbəkistan Prezidentinin isə ölkəmizə həyata keçirdikləri səfərlər və aparılmış səmərəli müzakirələr məmnunluqla xatırlanıb.

Dövlət başçıları Azərbaycan-Özbəkistan münasibətlərinin qardaşlıq, dostluq və müttəfiqlik prinsiplərinə əsaslandığını qeyd edərək, gələcəkdə də əlaqələrin bütün sahələr üzrə uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.



Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Qazaxıstanın dövlətinin başçısı Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələr üzrə uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin genişlənməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunulub. Bu xüsusda, Azərbaycan Prezidentinin oktyabrda Qazaxıstana dövlət səfəri, həmçinin Kasım-Jomart Tokayevin ölkəmizə səfəri məmnunluqla xatırlanıb.

Dövlət başçıları əməkdaşlığımızın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.



Dekabrın 24-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Gürcüstanın Baş naziri Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Rusiya Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan və Rusiya prezidentlərinin keçirdikləri son görüşdə müzakirə olunmuş məsələlərə toxunulub, ikitərəfli əməkdaşlığın perspektivləri, həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Dekabrın 24-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Aleksandar Vuçiç dövlətimizin başçısını ad günü münasibətilə təbrik edərək, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyevlə Prezident Aleksandar Vuçiçin görüşləri məmnunluqla xatırlanıb, iki ölkə arasında tərəfdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Dövlət başçıları ikitərəfli əlaqələrin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.



Dekabrın 24-də İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, İsrail Prezidenti dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin ad günü münasibətilə dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, tanınmış ictimai - siyasi xadimlər təbrik məktubu ünvanlayıb. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Rusiyanın “SAFMAR” Qrupu” Səhmdar Cəmiyyətinin prezidenti Mixail Qutseriyev, İordaniyanın Kralı II Abdullah, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç, GUAM-ın Baş katibi Altay Əfəndiyev, Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini, Helsinki Azərbaycan Evinin və Azərbaycan-Türk Gənclər Təşkilatının rəhbəri Ülviyyə Cabbarova, Polşada fəaliyyət göstərən “Xarı Bülbül” Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının sədri Sedat Şamilli, İzmir Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Əşrəf Tuna, Sloveniyada fəaliyyət göstərən Azərbaycan Türk Mədəniyyəti Assosiasiyasının prezidenti Taleh Qurbanov, Barselonadakı Azərbaycanlılar Cəmiyyətinin və Azərbaycan Evinin rəhbəri Kərim Kərimov, Berlində fəaliyyət göstərən “Xarı Bülbül” Azərbaycan Mədəniyyət Evinin sədri Sevda Badaliouri, Praqada yerləşən Azərbaycan Mədəniyyət Evinin rəhbəri Leyla Begim Cəfərova, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbay, Ukraynanın Odessa vilayətindəki “Birlik” diaspor təşkilatının sədri Cəlil Astanov, Türkiyədə fəaliyyət göstərən Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyinin sədri Arzuman Azaflı, Belçika Krallığında fəaliyyət göstərən təşkilatlar, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Lüksemburq Azərbaycan Dostluq Assosiasiyasının sədri Seymur Əhmədov, İsveç Azərbaycanlıları Koordinasiya Şurasının Yöteborq şəhəri üzrə koordinatoru və Azərbaycan Qarabağ Mərkəzinin rəhbəri Ülviyyə Nəcəfova, Belçikada fəaliyyət göstərən “MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı” platformasının təsisçiləri Emin Əliyev və Aytən Məmmədova, Mərkəzi Asiya Mediatorları Konsorsiumunun sədri Gülsina Kojoyarova və həmsədri Jandilda Jakupov, “Vətənsevər” Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri Könül Hacızadə, Xorvatiya Respublikasının sabiq Prezidenti Stepan Mesiç, Rusiyanın “LUKOYL” Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti Vahid Ələkbərov, ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti Ravvin Mark Şnayer, Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar “Linqvist” liseyinin direktoru Valentina Antonenko, Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezov və başqaları Azərbaycan Prezidentini təbrik edib, gələcək fəaliyyətində uğurlar diləyiblər.











# Xankəndidə Zəfər parkı açıldı

## Prezident və birinci xanım açılış mərasimində...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verdi.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə “Zəfər qalereyası” sərgi-nümayiş zalı yaradılıb.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə parka 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir. Eyni zamanda, park Xankəndi sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edəcək. Bundan başqa, belə istirahət məkanlarının yaradılması işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin uğurla davam etdiyini göstərir.

# Qarabağ və Şərqi Zəngəzur abadlaşır...

## Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb








Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kompleksdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yeraltı və yerüstü avtomobil dayanacaqları yaradılıb.

Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun məntəqələrin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. Bununla yanaşı, sosial infrastrukturun yaradılması xüsusilə diqqət mərkəzində saxlanılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və bölgənin sürətli inkişafına xidmət edir.

# Qələbədən qayıdışa...

## Tarixi ədalət bərpa olunur, Qarabağda yeni gələcək qurulur

Azərbaycan dövləti 2020-ci ildə Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə təkcə ərazi bütövlüyünü bərpa etmədi, eyni zamanda onilliklər boyu pozulmuş ədaləti yenidən təmin etdi. Otuz ildən artıq müddətdə doğma yurd-yuvasından didərgin düşmüş minlərlə insanın öz isti ocağına qayıdışı bu Qələbənin ən böyük mənəvi nəticəsidir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanır, dağıdılmış şəhər və kəndlər müasir tələblərə uyğun şəkildə yenidən qurulur, region gələcəyə doğru inamla addımlayır. Ən əsası isə vurğuladığımız kimi, ədalətin bərpasıdır. Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşündə də bildirib ki, 1991-ci il dekabrın sonunda Ermənistan dövləti onları öz dədə-baba torpağından didərgin salmışdı: “Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur. Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu illər ərzində necə əzab-əziyyət içində yaşamısınız. Həm ev şəraiti, həm mənəvi əzab, ədalətsizlik hissi. Amma əminəm, siz də bütün xalqımız kimi inanırdınız ki, gün gələcək və biz buraya qayıdacağıq. İki il bundan əvvəl antiterror əməliyyatı nəticəsində Kərkicahan qəsəbəsi Xankəndi şəhəri ilə birlikdə işğalçılardan azad edilmişdir və artıq burada həyat yenidən qurulur”.

### 34 ildən sonra doğma Kərkicahana qayıdış...

Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri dövlətin strateji baxışının, planlı və məqsədyönlü siyasətinin bariz göstəricisidir. Yol infrastrukturu, enerji təminatı, sosial obyektlər, məktəblər, xəstəxanalar, yaşayış kompleksləri qısa müddətdə inşa olunur. “Ağıllı kənd” və “ağıllı şəhər” layihələrinin reallaşdırılması Qarabağın yalnız bərpa olunmadığını, eyni zamanda müasir inkişaf modelinə uyğun şəkildə formalaşdırıldığını göstərir. Dövlət başçısı sakinlərlə görüşdə deyib ki, torpaqlarımız işğalçılardan azad olundu və bütün keçmiş köçkünlər yavaş-yavaş öz dədə-baba torpaqlarına qayıdırlar, o cümlədən bu gün Kərkicahan qəsəbəsinə də keçmiş köçkünlər qayıdıb və bu qayıdış prosesi davam edir: “Yəni “Böyük Qayıdış” Proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır. Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün”.




### Bu, bərpanın birinci mərhələsidir...

Doğma torpaqlarına qayıdan insanlar üçün bu torpaqlar sadəcə yaşayış məkanı deyil, həm də ümid, inam və gələcək deməkdir. Hər bir bərpa olunan kənd, hər bir yenidən salınan qəsəbə Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir. Qarabağ bu gün yeni bir mərhələyə qədəm qoyur - sülhün, quruculuğun və davamlı inkişafın mərhələsinə. Bu proses həm dövlət-xalq birliyinin möhkəmliyini, həm də Azərbaycanın postmünaqişə dövründə nümunəvi yanaşmasını açıq şəkildə ortaya qoyur. Prezident görüşdə bildirib ki, Kərkicahanda hər şey yüksək səviyyədə təşkil olunub, qəsəbə göz oxşayır: “Əlbəttə ki, bu, qəsəbənin, bərpasının birinci mərhələsidir. Çünki işğal dövründə düşmən buranı da yararsız vəziyyətə salmışdı. Evlərin bir çoxunda heç yaşamaq mümkün deyil. Ona görə təqribən iki ilə yaxın təmir-bərpa işləri aparılıbdır. İndi isə artıq qəsəbənin bəzi küçələri tam abadlaşdırılıb, evlər tam hazır vəziyyətə gətirilib və burada yaşamaq üçün bütün şərait var”.

### Xəyanət, qorxaqlıq, cəsarətsizlik...

Ölkəmizin son 35 illik tarixi göstərir ki, bu nəticələr heç də asan əldə edilməyib. 1990-1993-cü ilin birinci yarısı aralığı Azərbaycan üçün faciəli bir dövr idi. O dövrdə baş verənləri təhlil etsək: dövlətçiliyin məhv olmaq təhlükəsi, siyasi xaos, bölgələrdə qarşıdurmalar, rəhbərsizlik - bütün bunlar o dövrün reallıqları idi. Bəli, 1990-cı illərin əvvəlində, cəmisi 1-2 il ərzində baş verənlər Azərbaycan tarixində ən acı səhifələrdən birini formalaşdırdı. 1990-1993-cü illərin birinci yarısında ölkə faktiki olaraq idarəolunmaz hala gəlmişdi. AXC-Müsavat cütlüyünün şəxsi maraqları, hakimiyyət hərisliyi dövlət maraqlarını kölgədə qoymuşdu. Hərb meydanında baş verən məğlubiyyətlər, Şuşa, Laçın, Kəlbəcərin itirilməsi sadəcə hərbi səhv deyildi - bu, dövlətə, xalqa, tarixə qarşı xəyanət idi. Prezident İlham Əliyev Kərkicahan sakinləri ilə görüşündə bildirib ki, əfsuslar olsun ki, o vaxt Azərbaycan rəhbərliyi bu torpaqların sakinlərini qoruya bilmədi, iradə göstərə bilmədi, qorxaqlıq göstərdi və faktiki olaraq işğalla barışmalı oldu: “Ondan sonra gələn hakimiyyət vəziyyəti daha da bərbad vəziyyətə salmışdı. Faktiki olaraq Şuşanın, Laçının işğalı Kərkicahanın işğalından təqribən beş ay sonra baş verdi. Ona qədər Xocalı soyqırımı törədildi. O vaxt həm sovet dövründən qalan rəhbərlik, həm də ki, guya xalq hərəkatına aid olan rəhbərlik faktiki olaraq burada yaşayan insanları taleyin ümidinə buraxmışdı. Sizi müdafiə edə bilərdilər, etmədilər. Bəziləri qorxaqlıqdan, bəziləri isə hakimiyyətə gəlmək üçün Azərbaycanda xaos, anarxiya yaratmaq məqsədilə bir çox hallarda xəyanət edərək torpaqlarımızı düşmənə təhvil vermişdi”.

Artıq o günlər arxada qalıb - Vətən müharibəsi və antiterror əməliyyatı Azərbaycan xalqının torpaq, Vətən həsrətinə son qoydu. Prezident İlham Əliyev bildirib ki, “iki il bundan əvvəl cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində işğala tam son qoyduq, suverenliyimizi bərpa etdik, işğalçıları torpaqlarımızdan əbədi qovduq və bu gün sülh içində yaşayırıq. Bu elə bir şərəfli tarixdir ki, əminəm, bugünkü nəsil, bundan sonrakı nəsillər bu şərəfli tarixlə əbədi olaraq fəxr edəcəklər”.

*Pərviz SADAYOĞLU*

# “Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi”





Dekabrın 24-də “Konstitusiya və Suverenlik İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən Nəsimi rayon təşkilatı ilə birgə “Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi” mövzusunda tədbir keçirilib.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu əlamətdar gündə keçirilən tədbirin mövzusunun çağdaş tariximizin möhtəşəm dövrü ilə həmahəng olduğunu bildirib: “Çünki günümüzün reallığı budur ki, dünyada bir çox ölkələr mühüm resurslara - əlverişli coğrafi mövqeyə, təbii sərvətlərə, böyük iqtisadi və demoqrafik potensiala sahib olsalar da, öz siyasətlərini milli maraqlara uyğun həyata keçirə bilmirlər. Müasir Azərbaycanın nümunəsi isə təsdiqləyir ki, məhz zəngin dövlətçilik təcrübəsinə, xalqın birmənalı və qətiyyətli dəstəyinə malik lideri olan ölkələr milli mənafelərə əsaslanan siyasət vasitəsilə davamlı inkişafı təmin edir və beynəlxalq aləmdə nüfuz sahibi olurlar. Çoxəsrlik dövlətçilik tarixinə malik Azərbaycan mürəkkəb sosial-iqtisadi və geosiyasi vəziyyətə baxmayaraq, müstəqilliyin bərpasından sonra yüksəlişini təmin edə, dünyada nüfuzlu dövlət kimi tanına bilmişdir. Bu, birmənalı olaraq Heydər Əliyev dühası və Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü fəaliyyəti sayəsində mümkün olmuşdur. Ümumxalq etimadını doğruldan dahi liderlərin uğurlu siyasəti nəticəsində sabitlik və tərəqqi yoluna qədəm qoymuş Azərbaycanın adı bu gün qüdrətli və qalib dövlətlər sırasında çəkilir”.

Tahir Budaqovun sözlərinə görə, inkaredilməz həqiqətdir ki, müdrik dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində Azərbaycan naminə çalışaraq xalqın işıqlı gələcəyini təmin edən əvəzsiz işlər görmüşdür: “1993-cü ildə xalqın israrlı tələbi ilə respublikamızda yenidən hakimiyyətə qayıdan Ulu Öndərin dövrün çağırışlarına cavab verən siyasəti nəticəsində milli birliyin, sabitlik və təhlükəsizliyin təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi və digər mühüm faktorlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin etmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin qarşısında duran ali məqsədlərə çatmaq üçün milli qanunvericiliyimizin əsaslarını müəyyən etmişdir. Bir sözlə, müstəqillik dövründə Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1993-2003-cü illər əldə etdiyimiz möhtəşəm qələbələrin təmini üçün möhkəm təməllərin yaradılmasını şərtləndirmişdir”.

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndərin xalqımız qarşısında xidmətlərindən bəhs edərkən bu kontekstdə müasir dövlətçilik tariximizdə müstəsna yerə və rola malik - taleyüklü önəm daşıyan siyasi varisliyin təmin olunmasını xüsusi qeyd etmək lazımdır: “Azərbaycan xalqının böyük etimadı əsasında ölkə Prezidenti seçilərək dövlət başçısı kimi fəaliyyətə başladığı zaman öz missiyasını “Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar” - tezisi ilə ifadə edən cənab İlham Əliyev Heydər Əliyev yoluna sadiqliyini sübuta yetirmişdir. Bu gün inamla və iftixarla söyləyirik ki, Ulu Öndərin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq qarşıda duran strateji hədəfləri















inamla gerçəkləşdirmişdir. Dövlət başçısının qeyd etdiyi kimi: “Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur”.

Tahir Budaqov əlavə edib ki, Prezident İlham Əliyevin tərəqqi və Zəfərə hədəflənən məqsədyönlü siyasəti sayəsində iqtisadi gücü artan, modern ordu quruculuğuna nail olan, regionda lider dövlətə çevrilən və qlobal təsir imkanları genişlənən Azərbaycanın bütün cəbhələrdə - hərb meydanında, beynəlxalq informasiya platformasında və diplomatiya müstəvisində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin - ərazi bütövlüyü və mütləq suverenliyin bərpasına müvəffəq olması xalqımızın şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsidir: “Azərbaycanın son illərdə əldə etdiyi tarixi nailiyyətlər fonunda nəinki regionda, daha geniş coğrafiyada təşəkkül tapmış yeni reallıqlar ictimai-siyasi sabitliyin və milli birliyin möhkəmləndirilməsini, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını, ölkənin beynəlxalq mövqeyinin daha da gücləndirilməsini zəruri edir. Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası da yeni dövrün çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək əzmindədir. Ulu Öndərimizin tükənməz siyasi irsinə sonsuz ehtiram və sədaqət nümayiş etdirməklə möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycan naminə çalışmaq hamımızın ümdə vəzifəsidir. Fürsətdən istifadə edərək hər birimizin adından partiyamızın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, xalqımızın rifahı və ölkəmizin firavanlığı naminə şərəfli fəaliyyətində davamlı uğurlar arzulayıram. Şübhə yoxdur ki, dövlət başçısının rəhbərliyi ilə görülən işlər ölkəmizə bundan sonra da yeni müvəffəqiyyətlər qazandıracaq, tarixi dəyərlərlə müasir reallıqların vəhdətinə əsaslanan, azərbaycançılıq ideologiyasına və dövlətçilik ideyasına söykənən Heydər Əliyev siyasəti Azərbaycana növbəti qələbələri bəxş edəcəkdir. Yaşasın Heydər Əliyev dühasının xalqımıza ən böyük mənəvi-siyasi mirası olan müstəqil Azərbaycan dövləti! Eşq olsun Azərbaycanı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə!”.

Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla çıxışında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 2003-cü ildə cənab İlham Əliyev haqqında “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” fikirlərini xatırladıb. Beş il əvvəl Müzəffər Lider İlham Əliyevin “Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir!” sözlərini fəxarətlə ifadə etdiyini vurğulayan Kamal Abdulla bildirib ki, Azərbaycan xalqının belə böyük bir sərkərdə və Prezidentinin olması qürurvericidir: “Biz ordumuzla, qalib əsgərlərimizlə, şəhidlərimizlə, qazilərimizlə, arxa cəbhədə bir yumruq kimi Azərbaycanın adını yüksəldən vətəndaşlarımızla fəxr edirik”.

davamı 5-ci səhifədə

# “Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi”























əvvəli 4-cü səhifədə

Rektor vurğulayıb ki, bütün dünya Azərbaycan xalqının mədəniyyəti, intellektual səviyyəsi, döyüş bacarığı və diplomatik gücünə şahid oldu: “Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına tarix boyu göstərilən xidmətlərdən ən möhtəşəmini həyata keçirdi. Millətimiz bunu heç zaman unutmayacaq və cənab Prezidentin ideallarını Vətən bayrağı kimi daim uca tutacaqdır. Möhtərəm Prezidentimiz Vətənin işıqlı gələcəyə gedən yolunda cəsur əsgər, müzəffər sərkərdə, ləyaqətli Prezident, vəfalı oğul və qədirbilən ata kimi Zəfərdən-Zəfərə addımladı, bizi də məğrur, başıdik, alnıaçıq insanlar kimi arxasınca apardı. Prezident İlham Əliyevlə birlikdə bu yolu getmək qürurlu və şərəflidir”.

“Prezident İlham Əliyev daim qeyd edir ki, multikulturalizm ölkəmizdə özünəməxsus həyat tərzinə çevrilib. Müasir dövrdə Heydər Əliyev idealları etibarlı, münbit zəmində inkişaf etdirilir. Bunun müəllifi Ümummilli Liderin siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, qalib Ali Baş Komandan İlham Əliyevdir. Ulu Öndərin ideyalarını və irsini mükəmməl mənimsəyən, onların həyata keçirilməsində yeni uğurlar qazanan Prezident İlham Əliyev çağdaş zamanımızda multikultural dəyərlərin himayəçisi kimi çıxış edir. Azsaylı xalqların, dini konfessiyaların hüquqlarının qorunmasında, mədəni müxtəlifliyin saxlanılmasında, Azərbaycanın multikultural həqiqətlərinin qlobal miqyasda təqdim olunmasında Prezident İlham Əliyevin cahanşümul fəaliyyəti göz önündədir”, - deyə Xalq yazıçısı əlavə edib.

Şəhid Ruslan Cəfərovun anası Alimə Cəfərova belə bir mötəbər tədbirdə çıxış etməyin onun üçün həm şərəf, həm də böyük məsuliyyət olduğunu bildirib: “Azərbaycanın bugünkü qürurlu, suveren və qalib ölkə reallığı təsadüfi deyil. Bu yolun təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər bizə təkcə müstəqil dövlət yox, mütərəqqi Konstitusiya, milli kimlik və sarsılmaz dövlətçilik ideologiyası miras qoyub. O Konstitusiya ki, bu gün hər bir Azərbaycan vətəndaşının hüququnun, ləyaqətinin və azadlığının təminatıdır. Bir ana olaraq deyirəm ki, övladım Vətən naminə, Heydər Əliyevin qurduğu dövlətin, İlham Əliyevin qoruduğu suverenliyin uğrunda canından keçdi. Bu, hər bir şəhid anasının ağrısını qürura çevirən ən böyük həqiqətdir”.

Alimə Cəfərova vurğulayıb ki, Heydər Əliyev ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfəri təmin etdi: “44 günlük Vətən müharibəsi və bir günlük antiterror əməliyyatı göstərdi ki, ölkəmizin Konstitusiyası real həyatda - döyüş meydanında, siyasi masada, beynəlxalq hüquqda öz sözünü deyir. Fəxrlə ifadə edirik ki, şəhidlərimizin qanı yerdə qalmadı. Onların qanı müstəqilliyimizin möhürü, suverenliyimizin imzası oldu. Bu gün üçrəngli bayrağımız bütün ərazilərimizdə dalğalanırsa, bu, Heydər Əliyev uzaqgörənliyinin və İlham Əliyev qətiyyətinin nəticəsidir. “Konstitusiya və Suverenlik İli” bizim üçün təkcə təqvim ili deyil. Bu il xalqımız üçün milli qürur ilidir. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğı sübut edir ki, Azərbaycan öz qəhrəmanlarını unutmur. Oğlum Ruslan Cəfərov qalib xalqın şəhididir. İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da güclənəcək, şəhidlərimizin ruhu daim şad olacaq. Dövlətimizin başçısına bir şəhid anası kimi təşəkkür edirəm. Yaşasın müstəqil, suveren və qalib Azərbaycan!”.

Daha sonra çıxış edən Vətən müharibəsi iştirakçısı, qazi Rüfət Salmanov deyib: “Bu gün bu tribunada təkcə bir qazi kimi yox, həm də Azərbaycan Ordusunun bir əsgəri, qalib xalqın nümayəndəsi olaraq çıxış etmək mənim üçün böyük şərəfdir. Milli Konstitusiyadan mütləq suverenliyə aparan yolun canlı şahidi və iştirakçısı olmaq taleyin bizə verdiyi böyük məsuliyyətdir. Biz döyüşə gedəndə bir amalımız vardı: dövlətimizin suverenliyini tam bərpa etmək. Biz bilirdik ki, arxamızda Ulu Öndər Heydər Əliyevin qurduğu güclü dövlət, önümüzdə isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi dayanır. Bu inam bizi məğlubedilməz etdi”.

R.Salmanov bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır: “O, Konstitusiya ilə xalq-dövlət-ordu birliyinin əsasını qoydu. Biz Vətən müharibəsində həmin Konstitusiyanın canlı qüvvəsi olduq. Döyüş meydanında hər addımda hiss edirdik ki, bu mübarizə haqq işidir, beynəlxalq hüquqa, milli iradəyə və Konstitusiyaya söykənir. Prezident İlham Əliyev bu irsi zirvəyə daşıdı. Ali Baş Komandan kimi verdiyi hər qərar, göstərdiyi qətiyyət orduda ruh yüksəkliyi yaratdı. Biz bilirdik ki, bu savaşın sonunda mütləq qələbə olacaq. Çünki bu, sadəcə hərbi əməliyyat deyil, suverenlik mübarizəsi idi. Qazi kimi fəxrlə deyirəm ki, Azərbaycan əsgəri yalnız əzəli torpaqları üçün yox, həm də dövlət, bayraq, Konstitusiya üçün döyüşdü. Bu gün Azərbaycanın tam suverenliyi reallıqdırsa, bu, Ümummilli Lider Heydər Əliyev ideyalarının Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilməsinin nəticəsidir. “Konstitusiya və Suverenlik İli” bizim üçün döyüş yolunun siyasi davamıdır. Bu fakt sübut edir ki, Azərbaycan artıq öz taleyinin tam sahibidir. Ordusu güclü, xalqı həmrəy, Lideri qətiyyətli olan dövlət heç vaxt yolundan dönməz”.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

# Qədim diyardan - Naxçıvandan başlayan həmrəylik yolu




Dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar yaşayırlar. Ancaq harada yaşamalarından asılı olmayaraq, dünya azərbaycanlılarının qəlbi ana Vətənlə döyünür. Tarixin bu günündə - 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası “Azərbaycanlıların həmrəyliyi günü haqqında” tarixi qərar qəbul edib. Bəhs olunan sənədlə qərara alınıb ki, hər il dekabr ayının 31-i bütün dünyada yaşayan azərbaycanlıların həmrəyliyi günü elan edilsin.

Beləliklə, həmin tarixdən etibarən hər il 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününü soydaşlarımız tərəfindən böyük coşqu ilə qeyd edilir.

## Heydər Əliyevin Azərbaycan məfkurəsinə gətirdiyi ümummilli ideya

Artıq həmrəylik günü sayı 50 milyonu ötən dünya azərbaycanlıları üçün ümummilli bayrama çevrilib. Bu ümummilli ideyanı Azərbaycan məfkurəsinə gətirən isə böyük siyasətçi Heydər Əliyev olub. O, Özünə xas olan uzaqgörənliklə qədim diyarda - Naxçıvanda həmrəylik günümüzün əsasını qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə tarixi qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət ünvanlayıb. Dekabrın 25-də Ali Sovetin Milli Şurası müraciəti nəzərə alaraq müvafiq qərar qəbul edib.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd olunması üçün dekabrın 31-nin müəyyənləşdirilməsi də təsadüfi deyil. Bəllidir ki, imperialist güclərin maraqları bütöv coğrafiyamızı və xalqımızı Arazın o tayı və bu tayı deyilən iki hissəyə bölüb. Keçmiş SSRİ-nin süqutu ərəfəsində - 1989-cu il dekabrın son günlərində Araz sahillərində yaddaşımızda əbədi qalacaq hadisələr yaşandı. Arazın o tayından və bu tayından olan azərbaycanlılar onları ayıran tikanlı çəpərləri dağıtdılar. Hava soyuq və şaxtalı olsa da, Arazın sahilində bir-birinə qovuşan azərbaycanlılar günlərlə orada qaldılar və birləşmək istədiklərini bütün dünyaya bəyan etdilər. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü məhz xalqımızın birləşmək istəyini simvolizə edir.

## Mütəşəkkil təsisatlanma istiqamətində atılan mühüm addımlar

Dünya azərbaycanlılarının həmrəyliyi ideyasını milli məfkurəmizə gətirən Heydər Əliyev, eyni zamanda, bu birliyin institutlaşması prosesinin də əsasını qoyub. Onun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına öz müsbət təsirini göstərdi. Qurultaydan sonra Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diaspora İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təsisatlanması prosesini daha da gücləndirdi.

Zamanında Heydər Əliyevin əsasını qoyduğu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirilir. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş Prezident İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Dövlət başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəlməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında daha sıx səfərbər olmalarına böyük töhfə verir. Hədəf xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsidir. Prezident İlham Əliyevin 2018-ci il 6 iyul tarixli fərmanı ilə Diaspora İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb. Bu fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, milli-mənəvi dəyərlərimizi inkişaf etdirmək və dünyada daha geniş tanıtmaq, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək, bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə yaradılıb. Dövlət başçımızın təşəbbüsü ilə 2019-cu ildə “Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalı təsis edilib.

## Azad Şuşada Zəfər qurultayı

Dünya azərbaycanlılarının 2001-ci ildə Bakıda keçirilən birinci qurultayında Heydər Əliyev əminliklə bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Bu missiyanı xalqımız dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə reallaşdırmağa nail oldu. Artıq müstəqil Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Şanlı Azərbaycan Bayrağının ölkənin bütün ərazisində əzəmətlə dalğalanması dünya azərbaycanlılarına sonsuz qürur hissi yaşadır.

Eyni zamanda, soydaşlarımız son dərəcə qürurludurlar ki, uzun işğal illərindən sonra dünya azərbaycanlılarının V qurultayı azad Şuşada keçirildi. 22 aprel 2022-ci ildə baş tutan qurultayın açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev Şuşadan dünya azərbaycanlılarını salamladı.

*Mübariz FEYİZLİ*

# Növbəti diplomatik uğur!

## Bakı bəyannaməsi BMT-nin rəsmi sənədi kimi yayılıb

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə 2025-ci il oktyabrın 9-11-də Bakı şəhərində keçirilən “İtkin düşmüş şəxslər məsələsinin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi” mövzusunda beynəlxalq konfransda qəbul edilmiş bəyannamə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunub və yayılıb. Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayev bununla bağlı BMT Baş katibinə məktub ünvanlayıb. O, məktubun və bəyannamənin yer aldığı əlavənin Baş Assambleyası gündəliyinin 31, 69, 71 və 84-cü bəndləri çərçivəsində və Təhlükəsizlik Şurasının sənədi kimi yayılması ilə bağlı müraciət edib.

## İtkin düşmüş şəxslərin taleyi ilə bağlı fəal iş aparılır


United Nations A/80/564*-S/2025/797*
General Assembly
Security Council
Distr.: General
8 December 2025
Original: English

General Assembly
Eightieth session
Agenda items 31, 69, 71 and 84
Security Council
Eightieth year
Prevention of armed conflict
Elimination of racism, racial discrimination, xenophobia and related intolerance
Promotion and protection of human rights
The rule of law at the national and international levels

Letter dated 8 December 2025 from the Permanent Representative of Azerbaijan to the United Nations addressed to the Secretary-General

Upon instructions from the Government of the Republic of Azerbaijan, I have the honour to submit herewith the declaration adopted at the international conference on “Uniting efforts and enhancing cooperation for addressing the issue of missing persons”, held from 9 to 11 October 2025 in Baku, Azerbaijan (see annex).

I should be grateful if you would have the present letter and its annex circulated as a document of the General Assembly, under agenda items 31, 69, 71 and 84, and of the Security Council.

(Signed) Tofig F. Musayev
Ambassador
Permanent Representative

Qeyd edək ki, Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil. Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. 44 günlük Vətən müharibəsində isə 6 vətəndaşımız itkin düşüb. Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə kütləvi məzarlıqlar aşkar olunub. Həmin məzarlıqlarda basdırılmış insanlar Birinci Qarabağ müharibəsində itkin düşənlərdir. Onların bəzilərinin kimliyi müəyyənləşdirilərək ailələrinə təhvil verilib və dəfn olunublar. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə davamlı olaraq işlər aparılır.

Bütövlükdə, itkin düşmüş şəxslərin taleyi Azərbaycan dövlətinin gündəliyində mühüm yer tutur. Bu istiqamətdə beynəlxalq platformalarda fəal iş aparılır. Xatırladaq ki, 2024-cü il noyabrın 15-də BMT Baş Assambleyasının 3-cü komitəsi tərəfindən A/C.3/79/L.35 nömrəli, “İtkin düşmüş şəxslər” adlı qətnamə konsensusla qəbul edilib. BMT-yə üzv olan 56 ölkə qətnaməyə həmmüəllif kimi qoşulub. Azərbaycan, 2002-ci ildən etibarən hər iki ildən bir təqdim olunan bu qətnamənin əsas həmmüəllifidir. Qətnamədə silahlı münaqişələr nəticəsində insanların itkin düşməsinin onların ailələrinə ağır əzablar verdiyi və münaqişələrə son qoyulması səylərinə mənfi təsir göstərdiyi qeyd olunur. Sənəddə, həmçinin itkin düşmüş şəxslərlə bağlı beynəlxalq humanitar hüququn və beynəlxalq insan hüquqlarının pozulmasına görə cəzasızlığa son qoyulmasının vacibliyi vurğulanır. Qətnamə silahlı münaqişə iştirakçısı olan dövlətləri insanların itkin düşməsinin qarşısını almaq, onların şəraitini müvafiq şəkildə araşdırmaq və taleyini müəyyən etmək üçün bütün lazımi tədbirləri görməyə çağırır. Ötən il qəbul olunan qətnamədə ilk dəfə olaraq minaların itkin düşmüş şəxslərin taleyini müəyyənləşdirmək səylərinə manеə törətməsindən də narahatlıqlar ifadə olunur və dövlətləri insanların qalıqlarını təhlükəsiz şəkildə axtarmaq istiqamətində də əməkdaşlıq etməyə çağırır.

Ümumiyyətlə, 2023-cü ildən etibarən ölkəmiz bu məsələ ilə bağlı məlumatlılığın artırılması üçün beynəlxalq konfranslar təşkil edir. 2024-cü il oktyabrın 2-3-də Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən “İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi” mövzusunda beynəlxalq konfransın Bəyannaməsi də rəsmi şəkildə BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurasının sənədləri kimi yayılmışdı.

## Bəşəri problemlərdən biri...

Bu ilin oktyabrında isə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində “İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi” mövzusunda beynəlxalq konfrans keçirilib. Prezident İlham Əliyev konfrans iştirakçılarına müraciət ünvanlayıb. Prezidentin müraciətində vurğulandığı kimi, itkin düşmüş şəxslər məsələsi dünyanı narahat edən mühüm bəşəri problemlərdən biridir. İllər keçdikcə bu problem aktuallığını itirməyib, əksinə, daha kəskin xarakter alıb. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, son iyirmi il ərzində itkin düşənlərin sayında 2024-cü ildə ən yüksək artım qeydə alınıb, həmin il münaqişə bölgələrində 57 minə yaxın insan itkin düşüb. Bu, silahlı münaqişələr dövründə beynəlxalq hüquq normalarına məhəl qoyulmamasının acı nəticəsidir.

Tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri, general-polkovnik Əli Nağıyev, İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) Baş direktoru Katrin Bomberger, Beynəlxalq Humanitar Hüquq İnstitutunun prezidenti, general-leytenant Giorgio Battisti, Gürcüstanın barışıq və vətəndaş bərabərliyi üzrə dövlət naziri, İtkin düşmüş şəxslərin qalıqlarının tapılması və ötürülməsi üzrə Qurumlararası Komissiyanın rəhbəri Tea Axvlediani, Türkiyə ədliyyə nazirinin müavini Hurşit Yıldırım, Xorvatiyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Stepan Mesiç, Bosniya və Herseqovinanın İtkin Düşmüş Şəxslər İnstitutunun İdarə Heyətinin sədri Marko Yurişiç və digərləri çıxış edərək mövzunun aktuallığından bəhs ediblər.

Konfrans işini sessiyalarla davam etdirib. Sonda konfransın yekun bəyannaməsi qəbul edilib. Bu bəyannamənin BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunması və yayılması isə Azərbaycanın növbəti diplomatik uğurudur.

*Nardar BAYRAMLI*

# Yarımçıq qalan uçuş: bir təyyarə, bir tarix, bitməyən kədər...

## Təyyarəmizin Aktauda qəzaya uğramasından 1 il ötür

Ötən il dekabrın 25-də baş vermiş təyyarə qəzasından 1 il ötür. Xatırladaq ki, 25 dekabr 2024-cü ildə Azərbaycan Hava Yolları aviaşirkətinin J2-8243 nömrəli Bakı - Qroznı reysini yerinə yetirən “Embraer E190AR” təyyarəsi Qazaxıstanın Aktau şəhərinin 3 km yaxınlığında qəza enişi etmişdi. Xəzər dənizi üzərində “SOS” siqnalı verdikdən sonra məcburi eniş etmək üçün Qazaxıstana istiqamətlənən təyyarə Aktau aeroportu yaxınlığında qəzaya uğradı. Faktla bağlı Azərbaycan, Qazaxıstan və Rusiyada cinayət işləri başlandı.



**62 sərnişin və 5 ekipaj heyətindən...**

Təyyarənin göyərtəsində 62 sərnişin, 5 ekipaj üzvü olmaqla, ümumilikdə 67 nəfər vardı. Qəza nəticəsində 38 nəfər həyatını itirdi, 29 nəfər, o cümlədən iki uşaq qəza nəticəsində xəsarət aldı. Göyərtədə ümumilikdə 37 Azərbaycan vətəndaşı vardı ki, onlardan 23-ü vəfat etdi. 16 Rusiya vətəndaşından 7-si həyatını itirdi. 6 Qazaxıstan vətəndaşı dünyasını dəyişdi.

5 nəfərdən ibarət ekipaj üzvü qəza zamanı göstərdikləri dəyanət və qəhrəmanlığa yaddə qaldılar: Hava gəmisinin kapitanı - İqor Kşnyakin, köməkçi pilot - Aleksandr Kalyaninov, təyyarə bələdçisi Hökumə Əliyeva qəzada həyatlarını itirdilər. Təyyarənin pilotları və bələdçi Hökumə Əliyeva II Fəxri xiyabanda dəfn olundular - onlar hadisə zamanı fədakarlıq göstərdiklərinə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldülər.

**Prezident geri qayıtdı....**

Qeyd edək ki, qəza baş verən zaman Prezident İlham Əliyev Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşmüşdü - dövlət başçısına bu xəbər Rusiya hava məkanında olarkən məruzə edildi. Prezident dərhal geri dönmək barədə tapşırıq verdi. Baş vermiş təyyarə qəzası ilə əlaqədar məsələlər birbaşa dövlət başçısının nəzarətinə götürüldü. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün dövlət komissiyası yaradıldı. Paralel olaraq Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də təyyarə qəzasının araşdırılması üçün xüsusi komissiyanın yaradılmasına göstəriş verdi.

**Qəza necə baş verdi?**

Təyyarənin qara qutusu Braziliyanın Hərbi Hava Qüvvələrinin peşəkar mütəxəssisləri tərəfindən açıldı. Aparılan araşdırmalardan sonra təyyarənin Qroznı şəhərinə yaxınlaşan zaman hücuma məruz qaldığı bəlli oldu. Məlumatlara görə, Rusiya tərəfindən elektron sistemlərdə məhdudiyyətlərin tətbiq edilməsi təyyarənin rabitə sistemini iflic edib. Təyyarə Qroznı şəhərinə yaxınlaşarkən Rusiya Hava Hücumundan Müdafiə (HHM) sistemi olan “Pantsir-S” ilə hədəf alınıb. Həmçinin, Rusiya tərəfinin Radioelektron Mübarizə (REB) sistemlərindən istifadəsi nəticəsində təyyarənin tamamilə rabitəsiz qaldığı bildirilib. Bu səbəbdən təyyarə Rusiya hava məkanında radarlardan itib, yalnız Xəzər dənizi üzərində siqnal bərpa edilib. Məlumata görə, hadisə zamanı Çeçenistan üzərində olan Rusiya HHM sistemləri Ukrayna pilotsuz uçuş aparatlarını (PUA) vurmağa çalışıb. Amma Rusiya özünün hava məkanını mülki aviasiya üçün bağlamamışdı...

**Rusiya üzr istədi...**

Qəzadan sonra Azərbaycanın təyyarənin hücuma məruz qalmasında günahkar olan Rusiyadan məsuliyyətli davranış tələb etdi - Rusiya prezidenti Azərbaycanın dövlət başçısına zəng edərək üzr istədi. Bu ilin oktyabrında Düşənbədə keçirilən görüş zamanı isə Vladimir Putin bildirdi ki, “sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək”.

Amma qəzadan 1 il ötməsinə baxmayaraq hələ də günahkarlar məsuliyyətə cəlb edilməyib və Rusiya prezidenti vədinə əməl etməyib...

**Əziz xatirələri yaşayır...**

Baş verən faciənin miqyası çox böyük, kədəri böyükdür. Bu gün qəzadan 1 il ötməsinə baxmayaraq xalqımız bu ağır və dəhşətli hadisəni unutmayıb. Dövlətimiz hər zaman qəzada həyatını itirmiş şəxslərin ailələrini diqqət mərkəzində saxlayır. Baş verənlərə hüquqi qiymətin verilməsi prosesi də nəzarətdədir. Yeri gəlmişkən, “Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin ötən il dekabrın 25-də Qazaxıstanda qəzaya uğrayan təyyarəsinə həsr olunmuş poçt markası buraxılıb. Tədqimat çərçivəsində markanın nümunəsi muzeydə xüsusi ekspozisiya kimi nümayiş etdirilib. Markanın dizaynında yer alan sonsuzluq simvolu faciəli hadisənin, onun qurbanlarının və milli tariximizdə iz qoymuş ekipajın qəhrəmanlığının yaddaşlarda daim yaşadılmasını ifadə edir. Poçt markasının təqdimatında Azərbaycan Respublikasının Milli Qəhrəmanları olan ekipaj üzvlərinin ailələri də iştirak ediblər.

*P.İSMAYILOV*

# 70 ilin hikməti bir kitabda toplandı!

## Hər səhifəsi fərqli təcrübədir...

### Professor Tofiq Əbdülhəsənlinin doğum günüdür



Tanınmış professor, publisist, ədəbiyyatşünas alim Tofiq Əbdülhəsənli məqsədlərinə asanlıqla nail olmağa can atmayıb. Çətinlikləri zəhmətlə, inamla, inadkarlıqla və istedadı ilə aradan qaldırmaq qənaətində olub. İstər orta və ali məktəblərdə təhsil alanda, zavodda işləyəndə, istərsə də jurnalist, elmi-pedaqoji fəaliyyətlərində qarşılaşdığı çətinlikləri alın təri, yuxusuz gecələr hesabına aradan qaldırıb. Neçə-neçə uğura sonsuz sevgisi ilə imza atıb.

İstedadlı publisist, ədəbiyyatşünas alim, Azərbaycan Yazıçılar Birliyinin (AYB) və Yeni Azərbaycan Partiyasının (YAP) üzvü, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Tərəqqi" medallı, Həsən bəy Zərdabi və "Qızıl qələm" mükafatları laureatı, professor Tofiq Əbdüləziz oğlu Əbdülhəsənli 1955-ci il dekabrın 30-da Neftçala rayonunun qədim yaşayış məskənlərindən olan Pirəbbə kəndində dünyaya göz açıb. Bu ayın 30-da professorun 70 yaşı tamam olacaq. Həyatının 70-ci ilinə qədəm qoymağa hazırlaşan alimlə uşaqlıq və gənclik illərindən, yaradıcılığında əldə etdiyi nailiyyətlərdən danışdıq.

**- Uşaqlıq illərinizi necə xatırlayırsınız?**

- Orta təhsilimi Pirəbbə kənd məktəbində almışam. Həvəslə oxuyurdum, zəhməti sevə-sevə böyümüşəm, ədəbiyyata, nəsrə, poeziyaya vurğun olmuşam. Çünki anam Xanımnaz xanımın səsi ilə birgə bəzən sakit, bəzən coşğun Kürün nəğməsi axıb beşiyimə. Sonra Xəlil Rza Ulutürk şeiri, ideyası, ruhu....

Çörəyini torpaqdan, daşdan çıxaran, əlinin qabarı, alnının təri ilə qazanan Pirəbbə ağsaqqallarından biri olan atam, zəhmətkeş, sözübütöv, xeyirxah Əbdüləziz kişi ilk həyat müəllimim olub. Bəlkə buna görə də heç vaxt şöhrətə, zirvəyə sarı tələsməmişəm. Neftçaladan Bakıya gələndən sonra universitetin filologiya fakültəsində oxuya-oxuya işləyirdim. Fəhlə həyatı da görmüşəm, əsgər həyatı da...

**- Mətbuata nə zaman gəlmisiniz?**

- 1980-ci illərin əvvəllərindən mətbuat sahəsində işləmişəm. Bir müddət Azərbaycan Respublikasının Televiziya və Radio Verlişləri Komitəsində "AzTV"də iqtisadi və ekoloji mövzularda verilişlər hazırlayıb, tələbə həyatına aid silsilə reportajların da müəllifi olmuşam.

1985-1990-cı illərdə "Gənclik" nəşriyyatının redaktoru işləmişəm. 1990-1992-ci illərdə Azərbaycan Ali Sovetinin orqanı olan "Həyat" qəzetində şöbə müdiri, 1992-2002-ci illərdə Milli Məclisin orqanı -"Azərbaycan" qəzetində, 2003-cü ildən 2018-ci ilə qədər "Respublika" qəzetində şöbə müdiri vəzifələrində çalışmışam.

**- Daha çox hansı mövzuları qələmə almısınız?**

- Daha çox ölkə iqtisadiyyatı barədə silsilə məqalələr yazmışam, əsasən, publisitik analitik-iqtisadi məqalələr müəllifi olmuşam. Eyni zamanda istehsalatda çalışanda gözümlə gördüyüm və yaşadığım fəhlə əməyi, fəhlə şərəfi barədə çoxlu oçerklər, reportajlar yazırdım. Qəzetlərdə məqalələr çap etdirib, radioda, televiziyada silsilə verilişlər səsləndirirdim. Beləliklə, jurnalist ömrü yaşamağa başladım. "Gənclik" nəşriyyatında uzun illər redaktor işləmişəm, onlarla kitabım ərsəyə gəlib.

Nəşriyyatdakı işimdən sonra tale elə gətirdi ki, ölkənin aparıcı qəzetlərinin iqtisadiyyat şöbələrinə rəhbərlik etdim. İqtisadiyyat - hər gün rəqəmlər, icmallar, təhlillər... Həmin illərdə mənimlə çiyin-çiyinə çalışan həmkarlarım söyləyirlər ki, bir də görürdün iqtisadi problemlərə aid yazıların içərisindən baş qaldırıb Füzulinin, Cavidin, Xəlil Rza Ulutürkün misralarını əzbərdən deyirəm. Zəhmətimin bəhrəsi olan "İstiqlal işığında", "Vətəndaş yanğısı" kitablarım nəşr olunub. Hələ qovluqlarda neçə-neçə kitaba yerləşəcək məqalələrim var. Ədəbi, ekoloji, iqtisadi mövzularda...

**- Bir az da tələbələrinizlə münasibətinizdən danışardınız...**

- Neçə illərdir mənim ömür qatarımın sərnişinləri arasında tələbələrim də var. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Azərbaycan dili kafedrasının müdiriyəm. Hörmətli rektorumuz, professor Ədalət Muradovun rəhbərliyi ilə bu universitet Azərbaycanın və dünyanın ən nüfuzlu, ən qabaqcıl təhsil ocağına çevrilib. Burada işləməklə qürur duyuram. Çalışıram ki, bir müəllim olaraq da etimadı doğruldam. Çünki müəllim adının məsuliyyəti böyükdür. Ulu Öndərimiz Heydər Əliyevin: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" sözləri harada işləməsindən asılı olmayaraq, hər bir müəllimin boynuna böyük məsuliyyət yükü qoyur. Mən bu sözləri cəmiyyətə bir mesaj kimi də qəbul edirəm. Belə ki, müəllim hər yerdə sayılıbseçilən insan olmalıdır və bu hörməti, nüfuzu təbii ki, ilk növbədə özü qazanmalıdır.

Tələbələrimə qayğı ilə yanaşıram. Onlar da mənə hörmət bəsləyirlər. Zəngin dilimiz, onun ifadə imkanlarının genişliyi və bu kimi mövzularda dərslərimiz həmişə marağa, müzakirə və diskusiyalara çevrilir.

**- Ömrü bir qatara bənzətdiniz. Qatar gedirsə, deməli, onun müəyyən dayanacaqları da olur...**

- Bəli. Mənim üçün həmin dayanacaqlar həyatımın önəmli hadisələrinin baş verdiyi günlərdir. "İqtisadiyyat da poeziyadır", "Cəmiyyətin iqtisadi təkamül mərhələsi: ədəbi proses və söz yaradıcılığı", "İşgüzar yazışmalar", "İşgüzar Azərbaycan dili", "Poetik sözün vüsəti", "Vətəndaş yanğısı", "Dilimiz-varlığımız" "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", "Azərbaycan dili və nitq mədəniyyəti" və digər dərsliklərin, publisistik və elmi kitablarımın dərc olunduğu tarixlərdir.

Prezidentimiz İlham Əliyevin sərəncamları ilə Azərbaycanın Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşəm. Bu uzun illər ərzində rəsmi dövlət qəzetlərində mətbuat işçisi kimi mənim əməyimə Prezident tərəfindən verilən çox böyük bir qiymətdir. UNEC-in 90 illik yubileyində təhsildə qazandığım uğurlar, "Tərəqqi" medalı ilə təltif olunduğum günlər də növbəti dayanacaqlar idi. Cənab Prezidentimizə təltif olunmağımla bağlı verdiyi sərəncamlara görə bir daha minnətdarlığımı bildirirəm.

"Yeni Azərbaycan" kollektivi olaraq Tofiq müəllimi 70 yaşı münasibətilə təbrik edir, işlərində uğurlar diləyirik!

***Söhbətləşdi:***
***Yeganə BAYRAMOVA***

# Yüz ilə sığmayan gün

## Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Qazanqapın oğlu Sabitcan atasının antipodu, onun tərsinə çevrilmiş köynəyidir. Cismən atasının oğlu olsa da, mənən manqurtun varisidir. Təkcə elə şəhərdə yaşamağıyla özünü fağır, sadəlövh Boranlı zəhmətkeşlərindən min qat üstün bilir, elmi-texniki bilgilərinin savadsız fəhlələrdən çox olmasıyla qürrələnir, onların avamlığını başlarına qaxır. Özünü elə aparır ki, guya şəhərdə onsuz heç kimin işi getmir, halbuki həmin əyalət şəhərində o, bürokratik aparatın xırdaca bir vintciyi - vurtut hansısa məmurun katibi, necə deyərlər, çaydaşıyanı, çantadaşıyanıdır. Eynən ulu babası manqurt kimi Sabitcan üçün də müqəddəs heç nə qalmayıb, xeyir, həqiqət, gözəllik onun toz basmış ruhuna yad-yabançıdır. Atasına ağı dediyinə görə müasirlik tərəfdarı şəhərli meyit ortalıqda ola-ola bacısıyla ağızlaşır, mərhumun uzaq Ana-Beyitdə dəfninə etiraz eləsə də, Yedigeyin dəmir iradəsini sındıra bilmir. Sonra xarizmasının zədələndiyini görən saxta tərəqqi aşiqi, yalançı sivilizasiya cəngavəri, vunderkind qarışqa, motorlu kərtənkələ özünü üstün, ağıllı göstərməyin yolunu dünyanın gözündən iraq fağır boranlıları təəccübləndirməkdə tapır:

"- Siz bir özünüz ağlınıza vurun, - o, gözlüyünü parıldadaraq hamını kamına çəkirmiş kimi odlu baxışlarla süzürdü, - əslinə qalsa, biz bəşər tarixinin ən xoşbəxt adamlarıyıq. Bax, Yedigey, bizim aramızda ağsaqqal sənsən. Sən yaxşı bilirsən ki, əvvəllər necəydi, indi necədir. Bunu nəyə görə deyirəm? Keçmişdə insanlar allahlara inanırdılar. Qədim Yunanıstanda guya bu allahlar Olimp dağında yaşayırmışlar, onların nəyi allah idi?! Sarsağın biriydilər. Əllərindən nə gəlirdi? Bir-biriylə düşmənçilik eləməkdə ad çıxarmışdılar, amma adamların həyatını dəyişə bilmirdilər, heç bu barədə fikirləşmirdilər də... Əslində, bu allahlar heç yerli-dibli olmayıb, hamısı uydurma nağıllardır. Bizim allahımız bambaşqa - onlar bizimlə yanaşı yaşayırlar, bax burada, bizim Sarı-Özək torpağımızda, elə bununla da bütün dünya qarşısında fəxr eləyirik! Onları biz nə görürük, nə tanıyırıq, bu heç lazım da deyil, qanun da buna yol verməz ki, hər yetən şırkınbay-mırkınbaylar onlara əl verib salam desinlər, bəs kefin-əhvalın necədir? Elə əsl Allah da onlardır! Bax elə sən özün, Yedigey, təəccüblənirsən ki, onlar kosmik gəmini radio ilə necə idarə eləyirlər. Halbuki bu heç nədir, keçmiş əhvalatdır! O maşınlar, aparatlar proqram üzrə idarə olunur. Gün gələcək, adamlar da radio ilə idarə olunacaq, bu indiki avtomatlar kimi. Başa düşürsünüzmü - adamlar, uşaqdan böyüyəcən hamı. Artıq bunun üçün elmi əsaslar var. Elm ali mənafe naminə buna da nail olub.

- Dayan bir görüm, elə tutub ki, ali mənafe naminə, ali mənafe naminə! - Caydaq Ədilbəy onun sözünü kəsdi. - Sən məni bir əməlli başa sal, nəsə yaxşı başa düşmürəm. Belə çıxır ki, hər birimiz yanımızda tranzistorsayaq kiçik bir radioqəbuledici gəzdirməliyik verilən əmrləri eşitmək üçün? Bu, indi hər yerdə var ki!

- Ay məzən olsun! Məgər söhbət bundan gedir? O, boş şeydir, uşaq oyuncağıdır! Heç kim heç nə gəzdirməyəcək. İstəsən, lap lüt-üryan gəz dolan. Amma gözə görünməyən radio dalğaları - biotok adlanan şey daim sənə, şüuruna təsir edəcək.

- Belə de!

- Bəs sən nə bilmişdin! İnsan ancaq mərkəzdən verilən proqram əsasında iş görəcək. Ona elə gələcək ki, guya özü bildiyi kimi azad, sərbəst gəzib-dolanır, əslində isə lap nəfəsi də yuxarıdan verilən göstərişə əsasən alır. Hamısı da ciddi qaydalar üzrə. İstəyir ki, oxuyasan - siqnal verəcək, oxuyacaqsan. Oynamağın lazımdır - siqnal, oynayacaqsan. İşləməyin lazımdır - işləyəcəksən, özü də necə işləyəcəksən! Oğurluq, əyrilik, xuliqanlıq, cinayət - hamısı unudulub gedəcək. Ona görə ki, insan davranışında hər şey nəzərə alınacaq - bütün əməlləri, fikirləri, bütün arzuları. Məsələn, deyək ki, bu saat dünya demoqrafik fəlakət qarşısındadır, yəni o qədər doğubtörəyiblər ki, yedizdirmək olmur, ərzaq çatmır. Neyləmək lazımdır? Doğum azaldılmalıdır. Arvadına o vaxt yaxın duracaqsan ki, nə vaxt siqnal verəcəklər, cəmiyyətin mənafeyi naminə...

- Ali mənafeyi? - deyə Caydaq Ədilbəy rişxəndlə düzəliş verdi.

- Tamamilə doğrudur, dövlət mənafeyi hər şeydən üstündür... Ya da elə hərbi işi götürək. Orada da hər şey komanda ilə olacaq. Oda atıl - atılacaqsan, paraşütlə tullan - göz qırpmayacaqsan, atom minasıyla tankın altına gir partlat - baş üstə, bir göz qırpımında...

Yedigeyi birdən əməlli-başlı qorxu basdı: bəlkə dünyada böyük elm sahibi olan adamlar var ki, bizim üstümüzdə allahlıq eləmək iddiasındadırlar..."

Aytmatovun antiutopiyası bu gün necə də aktual səslənir! Bir balaca düzəlişlə: alim adamlar da yox, elmi istismar eləyən adamlar - allahlıq iddiasına da yox, bu ad altında şeytanlıq iddiasına düşüblər. Yoxsa allahlıq iddiası insana zərər verməz, bəşəriyyətin bütün böyük nailiyyətləri məhz bu iddianın hesabına gerçəkləşib. Bu məsələylə bağlı, qismət olsa, irəlidə Boranlı Yedigeylə birgə ortaq qənaətə gələrik...

İnsanın yeni üsullarla manqurtlaşdırılmasından həvəslə danışan tərəqqi bülbülü hapa-gopa basdıqca unudur ki, bəyənmədiyi qədim yunan tanrıları da insanları bu üsulla idarə eləyirdilər, gecə-gündüz hər bir kəsə göz qoyur, hamını kökəldib kəsmək üçün otarırdılar. İnsanın azad iradəsi əlindən alınandan sonra nə fərqi var o azadlığı ondan kim alıb - Olimp allahlarımı, elm kahinlərimi, texnologiya krallarımı? Hər nədirsə, Sabitcan öz sərbəst iradəsini azadlıq dəllallarına, könül tacirlərinə təhvil verməyə bəri başdan, hələ ondan təslim olmaq istənməmiş çox həvəslə razılaşıb.

Bu məqamda böyük psixoloq Erix Frommun "Azadlıqdan qaçış" traktatı necə yada düşməsin? Həqiqətən, azadlıq elə yükdür ki, onun altına tək-tək adam çiyin verməyə razılaşır. Əksəriyyət azadlığın gətirdiyi riskləri təhlükəsiz həyatın dincliyinə dəyişməyi üstün tutur. Totalitar sistemlər məhz belə bir alver üzərində bərqərar olur. Sovet hakimiyyəti də duruş gətirdiyi yetmiş ilin ən azı qırx ilini xalqın dinclik arzusunun kölgəsində, asudəlik mürgüsünün xumarlığında keçirmişdi. İnsan hər cür təhlükədən öz evinə, çardağının altına sığınır, di gəl, zəlzələ baş verəndə ev, çardaq özü ən böyük təhlükəyə çevrilir.

***

Əsərin maraqlı məqamlarından biri Yedigeyin Zərifəyə sevgisindən duyuq düşdüyü anlardır. Yedigeylə yaşıd olan Abutalıb Kuttubayevin ailəsi - arvadı Zərifəylə iki balaca oğlu Boranlı razyezdinə 1951-ci ildə köçür. Abutalıb həm öz balalarına, həm də qonşu uşaqlarına yazıb-oxumaq öyrədir, gecələr cəbhə xatirələrini qələmə alır. Boranlıya Kuttubayevlər kefdən gəlməyiblər: on il əvvəl müharibədə almanlara əsir düşmüş Abutalıb düşərgədən qaçıb Yuqoslaviya partizanlarına qoşulub, onlarla çiyin-çiyinə faşizmə qarşı döyüşüb; Sovet İttifaqının Yuqoslaviya Federasiyasıyla arası dəyəndən sonra hər yerdə ona şübhəli persona kimi baxmağa başlayıblar, özünə iş, ailəsinə sığınacaq verməyiblər. Boranlıda isə Kuttubayevlər xoş üzlə, mehriban münasibətlə rastlaşıblar, Yedigeyin ailəsiylə birevli kimi olublar, arvaduşaq bir-birinə qaynayıbqarışıb.

davamı növbəti sayımızda



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Tolerantlıq hər bir azərbaycanlının həyat tərzidir...

## Azərbaycan Din Xadimlərinin II Forumu keçirilib

**Dünən Bakıda “Konstitusiya və Suverenlik İli” çərçivəsində Azərbaycan Din Xadimlərinin II Forumu keçirilib. Forumda müvafiq dövlət qurumlarının nümayəndələri, dini təhsil müəssisələrinin müəllimləri, ilahiyyatçı alim və mütəxəssislərlə yanaşı, Türkiyə və Özbəkistanın dini sahədə səlahiyyətli dövlət qurumlarının rəhbər şəxsləri iştirak ediblər.**



Forumda iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, ölkəmizdə din siyasəti demokratik, hüquqi, dünyəvi dövlətçilik prinsiplərinə və beynəlxalq normalara əsaslanır: “Bizim Vətənimiz tarixən müxtəlif sivilizasiyaların qovuşduğu, fərqli etnosların və dinlərin bir ailə kimi, qarşılıq-

### Bölünməz və zəngin mənəvi irsimizin əsas dayaqları

lı hörmət və sevgi şəraitində yaşadığı nadir mənəviyyat mərkəzlərindən biri olub. Bu coğrafiyada tolerantlıq hər bir azərbaycanlının mənəvi dünyasına həkk olunmuş həyat tərzidir. Qədim Qafqaz Albaniyasından bizə miras qalan məbədlər, İslamın gəlişi ilə mənəvi dünyamızın formalaşmasına güclü təsir göstərən əzəmətli minarələr, sinaqoqlar və kilsələr vahid, bölünməz və zəngin mənəvi irsimizin əsas dayaqlarıdır”.




Dünyəvi dövlət sosial-mənəvi həyat kontekstində dinin təbii yerini inkar etmir. Müasir hüquqi-demokratik dövlətdə həm sekulyarizm, həm də dindarlıq özünəməxsus yerə malikdir.

Dövlət-din münasibətlərinin daha bir mühüm xüsusiyyəti isə dinin siyasiləşdirilməməsidir. İstənilən din, ilk növbədə, mənəvi-əxlaqi bir hadisədir. Heç bir din özü-özlüyündə xalqın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün aspektlərini əhatə etmək iddiasında olmur”.

### Humanist dünyagörüşün əyani təzahürü

Komitə sədri vurğulayıb ki, Azərbaycanın dövlətçilik salnaməsi yalnız siyasi və iqtisadi nailiyyətlərlə deyil, eyni zamanda, sarsılmaz mənəvi dayaqlara, inanc və vicdan azadlığına hörmət və sadiqlik prinsiplərinə söykənən zəngin dəyərlər sistemi ilə səciyyələnir: “Sahib olduğumuz dövlət-din münasibətləri modeli hüquqi müstəvidə tənzimlənən sistem olmaqla yanaşı, xalqımızın min illər ərzində formalaşan, tarixin ən çətin sınaqlarından keçərək cilalanan yüksək mədəniyyətinin, dözümlülüyünün və humanist dünyagörüşünün əyani təzahürüdür. Bu irsin qorunması və gələcək nəsillərə ötürülməsi dövlət siyasətimizin və milli kimliyimizin ən fundamental prioritetlərindən biridir”.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**


### İstənilən din mənəvi-əxlaqi hadisədir

Özbəkistanın Dini İşlər Komitəsi sədrinin birinci müavini Davronbek Maxsudov bildirib ki, Özbəkistanla Azərbaycanı dövlət-din münasibətləri sahəsində də bir çox məqam birləşdirir: “Hər ikisi dünyəvi dövlətdir, ənənələrə, xüsusilə xalqların dini adət-ənənələrinə hörmətlə yanaşırlar.



### Dinə təsir edən əsas amillərdən biri...

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, din bəşəriyyət tarixində hər zaman mühüm rol oynayıb və cəmiyyətdə baş verən proseslərə dərindən təsir edən bir institut olub: “Müasir dövrdə dinə yanaşmalar müxtəlifdir və bu sahəyə təsir edən əsas amillərdən biri də texnologiyadır. Son araşdırmalar göstərir ki, artıq insanlar məlumatı televiziya deyil, daha çox internet resursları vasitəsilə əldə edirlər.

Ölkəmizdə dinlə bağlı biliklər orta məktəblərdə “Həyat bilgisi” və “Tarix” dərslərində, ali təhsil müəssisələrində isə “Multikulturalizm” fənni vasitəsilə tədris olunur. Məqsədimiz şagird və tələbələrə din haqqında elmi məlumatlar çatdırmaqdır. Lakin təhsil müəssisələrində dini təbliğ etmək düzgün olmaz. Azərbaycan dünyəvi dövlətdir və hər bir fərd inanc seçimində tam azaddır. Hazırda ölkəmizdə müxtəlif dinlərin və konfessiyaların nümayəndələri sülh və qarşılıqlı hörmət şəraitində birgə yaşayırlar”.

### Multikultural dəyərlər statik qalmamalıdır

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun sözlərinə görə, rəqəmsallaşmanın müsbət tərəfləri olduqca çoxdur: “Xüsusilə uşaqlar və gənclər ehtiyac duyduqları məlumatları süni intellekt vasitəsilə sürətlə toplaya bilirlər. Lakin informasiya bolluğu gəncləri çox vaxt dilemma qarşısında qoyur və düzgün seçimi çətinləşdirir”.

İcraçı direktor müasir texnologiyaların inkişaf sürəti ilə ayaqlaşmağın və onların mənfi təsirlərinə qarşı mübarizə aparmağın kifayət qədər çətin bir məsələ olduğunu bildirib: “Biz hələ də həcmli kitablar vasitəsilə gəncləri maarifləndirməyə çalışsaq da, müasir dövrün tələbləri fərqlidir. Artıq informasiyanı onlara daha yığcam, anlaşıqlı və maraqlı formatlarda çatdırmağın yollarını tapmalıyıq.

Cəmiyyətimizin informasiya təhlükəsizliyini təmin etmək və ötürdüyümüz məlumatların doğruluğunu qorumaq bu gün ən vacib amillərdən biridir. Ölkəmizdə mövcud olan multikultural dəyərlər statik qalmamalı, zamanın tələblərinə uyğun inkişaf etməlidir. Bu səbəbdən növbəti illərdə Elm və Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində tədris metodikasının yenilənməsinin və daha operativ formaya salınmasının faydalı olacağını düşünürük”.

*Yeganə*

# Ümid və gələcəyə inamın simvolu...

## Milad nədir, harada və necə qeyd olunur?

Bu gün xristianlar Milad Bayramını qeyd edirlər. İsa Peyğəmbərin anadan olduğu gün kimi qəbul edilən 25 dekabr həmçinin Doğuş Bayramı, ya da Milad Ziyafəti kimi adlarla da məşhurdur. Xristian dünyası bu bayramı yeni ümidlərin başlanğıcı, gələcəyə inamın simvolu kimi qəbul edirlər. Bayram həm dini, həm də mədəni mənada böyük əhəmiyyətə malikdir. Məlumdur ki, İsa Peyğəmbər xristianlar üçün Tanrının oğlu olaraq qəbul edilir, onun doğumu dünyaya ümid və sevgi gətirmək məqsədi daşıyır.

Milad Bayramının rəsmi olaraq təyin edilməsi və qeyd olunması İsa Peyğəmbərin doğumundan uzun müddət sonra baş verib. Belə ki, Miladın ilk dəfə qeyd olunması 4-cü əsrdə (336-cı ildə) Roma İmperiyasının imperatoru I Konstantin tərəfindən Roma şəhərində təşkil olunan bir kilsə şurasında qəbul edilib. Bayramın ən məşhur simvollarından biri Milad ağacıdır. Bu, ənənəvi olaraq ya təbii, ya da süni olaraq bəzədilir. Ağacın üzərində müxtəlif rəngli işıqlar, oyuncaq və bəzəklər olur.

Hədiyyə vermək isə Miladın ən çox sevilən ənənələrindən biridir. Bu, insanlar arasında sevgi və əlaqələrin möhkəmlənməsinə xidmət edir. Hədiyyələr Milad səhərində, ya da 24 dekabr gecəsi verilir.

Milad bayramında xüsusi yeməklər hazırlanır. Bu yeməklər ölkəyə və ənənələrə görə dəyişə bilər, lakin ənənəvi olaraq, şirniyyatlar, xüsusilə Milad tortu, keklər, təzə bişirilmiş çörəklər və yemək süfrələri önə çıxır.



### Ölkələrin maraqlı Milad adətləri

Milad bayramı dünyanın müxtəlif yerlərində fərqli yollarla qeyd olunur. Advent təqvimləri, hinduşka qızartması və Şaxta babanın bacadan gəlməsini gözləmək bir çox ölkələrdə bayramın əsas hissəsidir. Lakin bəzi bölgələrin daha unikal ənənələri də var. Gəlin, dünyanın ən maraqlı və fərqli Milad adətlərinə nəzər salaq:

Yaponiyada Milad süfrəsində hinduşka əvəzinə, Kentukki-qızardılmış toyuq üstünlük təşkil edir. Bu, kiçik ev sobalarının istifadəsi və KFC-nin uğurlu reklam kampaniyası nəticəsində ənənəyə çevrilib. Hətta Milad üçün KFC-də yemək sifarişi etmək lazımdır. Polkovnik Sandersin heykəlləri də Santa geyimində görünür.

Norveçdə insanlar Milad gecəsi süpürgələri gizlədirlər. Çünki inanclara görə, həmin gecə pis ruhlar və cadugərlər gəlir. Süpürgələri gizlətməmək bayram sevincini poza bilər.

Venesuelanın paytaxtı Karakas şəhərində insanlar kilsə ibadətinə konki ilə gedirlər. Milad həftəsi yollar bağlanır və bu adət təhlükəsiz şəkildə davam edir.

Avstriyada Krampus adlı iblis Miladdan əvvəl pis uşaqları qorxudur. İnsanlar şeytan paltarında küçələrdə gəzərək pis uşaqları cəzalandırmaq üçün onlara qorxu yaşadırlar.

Kataloniyada isə “Caga Tio” adlı maraqlı bir ənənə var. İnsanlar ağac kötüyünə üz çəkib papaq taxır və onu şirniyyatla qidalandırırlar. Milad ərəfəsində kötüyü çubuqla döyərək şirniyyatın ortaya çıxmasını gözləyirlər. Bu adət çox qəribə və əyləncəli görünür.

İsveçdə nəhəng Yule keçiləri düzəldilir. Ən məşhuru Gavle şəhərində olur və hər il bəzən yandırılmaq təhlükəsi ilə üzləşir.

Qvatemalada insanlar Miladdan əvvəl evlərini təmizləyir və bütün zibili toplayıb yandırırlar. Bu, şeytanı qovmaq və yeni ilə təmiz başlamaq üçün edilir.

Ukraynada ağaclar hörümçək torları ilə bəzədilir. Bu adət köhnə bir nağıldan ilhamlanıb və uğur gətirdiyinə inanılır.

Portuqaliyada “konsoda” zamanı masaya mərhum qohumlar üçün də yerlər hazırlanır. Bu adət ailəyə uğur gətirir və hər kəsi bir araya gətirir.

İtaliyada La Befana adlı qoca cadugər uşaqlara hədiyyələr gətirir. Əfsanəyə görə, o, vaxtilə İsa peyğəmbəri ziyarət etmək fürsətini qaçırıb.

Çexiyada subay qadınlar Milad ərəfəsində arxalarını qapıya çevirib ayaqqabılarını çiyinlərindən atırlar. Əgər ayaqqabının ucu qapıya tərəf düşərsə, həmin il evlənəcəklərinə inanırlar.

Almaniyada uşaqlar dekabrın 5-də qapılarının qarşısına çəkmə qoyurlar. Səhər çəkmələrdə şirniyyat tapsalar, yaxşı davrandıqlarını bilirlər. Əks halda, çəkmədə yalnız bir budaq görürlər.

Hər bir ənənə fərqli olsa da, hamısı Miladın sevincini və birlik ruhunu paylaşır.



### Miladla Yeni il eyni bayramdır?

Bəzən Milad ilə Yeni ilin eyni bayram olduğunu düşünənlər var. Hətta bununla bağlı insanlarda müəyyən çaşqınlıqlar da yaranır. Lakin qeyd etdiyimiz kimi, Milad İsa peyğəmbərin anadan olması ilə bağlıdır və 25 dekabrda qeyd olunan xristianlara məxsus bir bayramdır.

Yeni il isə müəyyən bir dini bayram deyil və dünya miqyasında bir çox ölkədə bir ilin bitib digərinin başlamasının qeyd olunduğu gecəyə verilən addır. 31 dekabr gecəsi qeyd olunur və 1və 2 yanvar günləri bir çox ölkədə rəsmi tətil hesab olunur.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2618
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova